**Karaelmas Sosyal Bilimler Dergisi** | Karaelmas Journal of Social Sciences
**Cilt 4 Sayı 1 Haziran 2026** | Volume 4 Number 1 June 2026

**Derleme** / *Review*

# QARABAĞ ZƏFƏRİNİN SİYASİ FONU VƏ BEYNƏLXALQ HÜQUQİ ƏSASLARI

Naqif HƏMZƏYEV*

**Xülasə**

*Azərbaycan Respublikasının Qarabağ üzərində əldə etdiyi qələbə ölkənin müasir siyasi və hüquqi inkişafında mühüm mərhələ kimi qiymətləndirilir. Tədqiqat çərçivəsində Qarabağ münaqişəsinin yaranma səbəbləri, xüsusilə sovet dövründə bölgədə formalaşdırılmış etnosiyasi ziddiyyətlər və Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi işğalçılıq siyasəti kompleks şəkildə təhlil olunur. Araşdırmada 1991-ci ildə dövlət müstəqilliyinin bərpası və Dağlıq Qarabağ Muxtar Vilayətinin ləğvi Azərbaycanın suveren hüquqlarının hüquqi müstəvidə təsbit olunması baxımından əsas mərhələ kimi qiymətləndirilir. Bununla yanaşı, Birinci Qarabağ müharibəsinin nəticələri, ölkənin ərazi bütövlüyünün pozulması və bu prosesin doğurduğu siyasi, sosial və humanitar nəticələr sistemli şəkildə nəzərdən keçirilir. Eyni zamanda Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilmiş dövlətçilik siyasətinin, balanslaşdırılmış xarici siyasət kursunun və ordu quruculuğunun Azərbaycanın gələcək hərbi-siyasi uğurlarının əsasını təşkil etdiyi vurğulanır. Tədqiqatda 2020-ci ildə baş vermiş Vətən müharibəsi nəticəsində də Azərbaycanın ərazi bütövlüyünün böyük hissəsinin bərpa olunması və 2023-cü ildə həyata keçirilmiş lokal xarakterli antiterror tədbirləri ilə dövlət suverenliyinin tam təmin olunması Qarabağ zəfərinin əsas nəticələri kimi dəyərləndirilir.*

***Açar sözlər:*** *Qarabağ münaqişəsi, Azərbaycan Respublikası, Suverenlik, Ərazi bütövlüyü, Beynəlxalq Hüquq*

# *THE POLITICAL BACKGROUND AND INTERNATIONAL LEGAL FRAMEWORK OF THE KARABAKH VICTORY*

**Abstract**

*The victory of the Republic of Azerbaijan over Karabakh is considered a significant milestone in the country's modern political and legal development. Within the framework of the study, the causes of the Karabakh conflict are comprehensively analyzed, with particular emphasis on the ethno-political tensions formed during the Soviet period and the occupation policy pursued by Armenia against Azerbaijan. The research evaluates the restoration of state independence in 1991 and the abolition of the Nagorno-Karabakh Autonomous Oblast as a key stage in establishing Azerbaijan's sovereign rights within a legal framework. In addition, the consequences of the First Karabakh War, including the violation of territorial integrity and the resulting political, social, and humanitarian impacts, are systematically examined. At the same time, it is emphasized that the state-building policy implemented under the leadership of National Leader Heydar Aliyev, along with a balanced foreign policy and military development, laid the foundation for Azerbaijan's future military and political achievements. The study further assesses the restoration of a significant part of Azerbaijan's territorial integrity as a result of the 44-day Patriotic War in 2020, as well as the full re-establishment of state sovereignty through the local anti-terror operations conducted in 2023, as the main outcomes of the Karabakh victory.*

**Keywords:** *Karabakh Conflict, Azerbaijan Republic, Sovereignty, Territorial Integrity, International Law*

* Dr., Baku State University, Department of History, Baku, Azerbaijan, hamza@nagif.info, ORCID ID: 0009-0009-3251-4122

**DOI: 10.70819/kares.1916940**

**Geliş tarihi**/*Received:* 08.04.2026 **Kabul tarihi**/*Accepted:* 15.06.2026

# KARABAĞ ZAFERİ'NİN SİYASİ ARKA PLANI VE ULUSLARARASI HUKUKİ TEMELLERİ

**Özet**

*Azerbaycan'ın Karabağ üzerinde kazandığı zafer, ülkenin siyasi ve hukuki tarihinde mühüm bir aşama olarak değerlendirilmektedir. Karabağ çatışmasının ortaya çıkış nedenleri, Sovyet döneminde bölgede şekillendirilen ayrılıkçılık eğilimleri ve Ermenistan'ın Azerbaycan'a karşı yürüttüğü işgal politikası analiz edilmektedir. 1991 yılında devlet bağımsızlığının yeniden tesisi ve Dağlık Karabağ Özerk Cumhuriyeti'nin (DKÖO) lağvedilmesi, Azerbaycan'ın egemenlik haklarının tescil edilmesi bakımından kritik bir adım olarak nitelendirilmektedir. Birinci Karabağ Savaşı sonucunda ülkenin toprak bütünlüğünün bozulması ve bunun doğurduğu siyasi-sosyal sonuçlar ele alınmaktadır. Milli Lider Haydar Aliyev tarafından temelleri atılan devletçilik ve dış politika çizgisinin, gelecekte elde edilecek zaferin siyasi ve hukuki zeminini oluşturmada hayati bir rol oynadığı vurgulanmaktadır. 2020 yılında gerçekleşen Vatan Muharebesi sonucunda da Azerbaycan'ın toprak bütünlüğünün büyük bir kısmının geri kazanılması ve 2023 yılında gerçekleştirilen terörle mücadele önlemleriyle egemenliğin tam olarak sağlanması, tarihi Karabağ zaferinin siyasi ve hukuki tantanası (doruk noktası) olarak kabul edilmektedir.*

**Anahtar Kelimeler:** *Karabağ Çatışması, Azerbaycan Cumhuriyeti, Egemenlik, Toprak Bütünlüğü, Uluslararası Hukuk*

## Giriş

Ərmənistanla Azərbaycan arasında mövcud Qarabağ münaqişəsi post-sovət məkanında formalaşmış ən mürəkkəb ətnosiyasi qarşıdurmalardan biri kimi çıxış edirdi. Onun yaranması həm sovət milli siyasətinin mirası, həm də Ərmənistanın Azərbaycana qarşı irəli sürdüyü ərazi iddiaları ilə sıx bağlıdır. Xüsusilə qeyd etmək laaımdır ki, SSRİ-nin son dövrlərində regionda güclənən separatizm meyilləri münaqişənin açıq fazaya keçməsinə zəmin yaratmışdır. Azərbaycanın 1991-ci ildə öz dövlət müstəqilliyini bərpa etməsi və Dağlıq Qarabağ Muxtar Vilayətinin ləğvi ölkənin suverən hüquqlarının bərpası baxımından mühüm siyasi və hüquqi addım kimi qiymətləndirilə bilərdi. Amma bu mərhələ münaqişənin sengiməsi ilə deyil, əksinə, daha genişmiqyaslı hərbi qarşıdurmaya çevrilməsi ilə müşayiət olundu. Birinci Qarabağ müharibəsi nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin bir hissəsi yəni təxminən 20 faizi işğal edildi. Buna əsasən də yüz minlərlə insan öz doğma torpaqlarından didərgin düşərək qaçqın və məcburi köçkün oldu. Bu proses də özlüyündə yalnız hərbi deyil, həm də ciddi sosial və humanitar problemlər doğurdu.

Sonrakı dövrdə Azərbaycan dövlətinin həyata keçirdiyi məqsədyönlü siyasət xüsusilə dövlət institutlarının möhkəmləndirilməsi, müasir ordu quruculuğu və balanslaşdırılmış xarici siyasət strategiyası ölkənin regional və beynəlxalq mövqelərinin güclənməsinə şərait yaratdı. Bu strateji xətt nəticə etibarilə Azərbaycanın hərbi-siyasi potensialını artıraraq münaqişənin həlli istiqamətində real imkanlar formalaşdırdı. 2020-ci ildə baş vermiş İkinci Qarabağ müharibəsi regionda mövcud olan uzunmüddətli status-kvonu köklü şəkildə dəyişdirdi. 44 gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycanın ərazi bütövlüyünün böyük hissəsi bərpa olundu və bu proses müasir Azərbaycan tarixində dönüş nöqtəsi kimi xarakterizə olunur. 2023-cü ildə həyata keçirilmiş lokal xarakterli antiterror tədbirləri isə ölkənin suverenliyinin tam təmin olunması ilə nəticələndi və dövlətin ərazi üzərində effektiv nəzarətini bərpa etdi. Bu baxımdan, qeyd olunan hadisələr Azərbaycanın Qarabağ üzərində əldə etdiyi qələbənin yalnız hərbi deyil, eyni zamanda siyasi və hüquqi baxımdan da mühüm əhəmiyyət daşıdığını göstərir. Bu tarixi proseslərin ictimai və milli yaddaşda xüsusi yer tutduğunu vurğulayan tədqiqatçılar qeyd edirlər ki, Vətən müharibəsi yalnız hərbi qələbə deyil, həm də kollektiv yaddaşın yenidən formalaşması baxımından əhəmiyyətli hadisədir. Belə ki, "bu Vətən müharibəsi tarixi yaddaşımızı oyatmaqla yanaşı, eyni zamanda, yaxın və uzaq gələcəkdə də bu yaddaşı oyaq və sərvaxt tutmağı zəruri edir" (Zeynaloğlu, 2021: 7).

Həmçinin bu müharibə Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində mühüm mərhələ kimi qiymətləndirilir. Qarabağ üzərində əldə edilən qələbə yalnız hərbi uğur deyil, eyni zamanda ölkənin beynəlxalq

səviyyədə tanınmış sərhədlər daxilində suverənliyinin təmin olunması baxımından strateji əhəmiyyət kəsb edir. 2020-ci ilin səntyabrın 27-də başlayan və "Dəmir yumruq" əməliyyatı kimi tarixə düşən hərbi kampaniya Azərbaycan Ordusunun yüksək döyüş qabiliyyətini və strateji üstünlüyünü nümayiş ətdirmişdir. Bu barədə qəyd olunur ki, "44 gün davam ədən Vətən müharibəsi hərb tarixinə İkinci Qarabağ müharibəsi kimi daxil olmuşdur" (Kərimov, 2024: 16).

## 1. Qarabağ Zəfərinə Gedən Yol

Azerbaycanın Prezidenti İlham Əliyev öz çıxışı zamanı İkinci Qarabağ müharibəsində əldə edilmiş qələbənin yalnız hərbi deyil, həm də geniş tarixi və siyasi əhəmiyyətə malik olduğunu vurğulamışdır. Onun qeyd etdiyi kimi, bu qələbə Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə yanaşı, beynəlxalq səviyyədə işğalçılıq siyasətinə qarşı ciddi mesaj kimi çıxış edir (Əzizov, 2021: 2). Qarabağ münaqişəsinin müasir mərhələsinin formalaşması sovet dövrünün sonlarında baş verən siyasi proseslərlə sıx bağlıdır. Xüsusilə 1980-ci illərin ikinci yarısından etibarən SSRİ-də həyata keçirilən "yenidənqurma" və "aşkarlıq" siyasəti fonunda etnik məsələlərin siyasiləşməsi müşahidə olunmuş, bu isə Dağlıq Qarabağda separatçı hərəkatların güclənməsinə səbəb olmuşdur. Tədqiqatlar göstərir ki, bu dövrdə Ermənistan siyasi dairələri və bölgədəki separatçı qüvvələr mövcud vəziyyətdən istifadə edərək Qarabağın Azərbaycandan ayrılması istiqamətində sistemli fəaliyyət göstərmişdir. Thomas de Waal bu prosesi sovet idarəetmə sisteminin zəifləməsi fonunda milli hərəkatların yüksəlişi ilə izah edir və qeyd edir ki, 1987–1988-ci illərdən etibarən münaqişə açıq qarşıdurma mərhələsinə keçmişdir (De Waal, 2003).

1990-cı illərin əvvəllərində Qarabağ bölgəsində mövcud vəziyyətin kəskinləşməsi Azərbaycanın milli təhlükəsizliyinə ciddi təhlükə yaratmışdır. Bu şəraitdə Azərbaycan Respublikasının Ali Soveti dövlət müstəqilliyinin hüquqi əsaslarını möhkəmləndirmək istiqamətində mühüm addımlar atmışdır. 1991-ci il oktyabrın 18-də qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" ölkənin müstəqil dövlət kimi formalaşmasının hüquqi əsasını təşkil etmişdir (Niftəliyev, 2021: 17). Konstitusiya Aktında Azərbaycanın müstəqil, dünyəvi və unitar dövlət olduğu, onun suverenliyinin bütün ərazisinə şamil edildiyi açıq şəkildə təsbit edilmişdir. Eyni zamanda qeyd olunurdu ki, dövlətin ərazi bütövlüyü toxunulmazdır və ölkə erazisinin hər hansı hissəsinin başqa dövlətə verilməsi yalnız ümumxalq referendumu əsasında mümkündür. Bu müddəalar beynəlxalq hüququn əsas prinsipləri ilə xüsusilə dövlətlərin suverenliyi və ərazi bütövlüyü prinsipləri ilə uzlaşır.

Amma Ermənistan tərəfindən həyata keçirilən hərbi təcavüz və işğal siyasəti həm Azərbaycanın daxili hüquqi sənədlərinə, həm də beynəlxalq hüququn fundamental normalarına zidd olmuşdur. Bu Avropa İnsan Hüquqları Məhkəməsinin "Chiragov və digərləri Ermənistana qarşı" işi xüsusi əhəmiyyət kəsb edir. Məhkəmə bu qərarında münaqişə nəticəsində yerindən edilmiş şəxslərin mülkiyyət hüquqlarının pozulduğunu və onların öz evlərinə qayıtmaq imkanının olmamasını hüquq pozuntusu kimi qiymətləndirmişdir (Chiragov və digərləri Ermənistana qarşı, 2015).

Ermənistan tərəfindən həyata keçirilən hərbi təcavüz və separatizm meyillərinin güclənməsi fonunda Azərbaycan Respublikasının Ali Soveti yaranmış vəziyyətə operativ reaksiya vermək məqsədilə bir sıra mühüm siyasi və hüquqi addımlar atmışdır. Bu istiqamətdə qəbul edilən əsas qərarlardan biri 1991-ci il noyabrın 15-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi məsələsi üzrə referendumun keçirilməsi haqqında" qərar olmuşdur. Qərara əsasən, 29 dekabr 1991-ci il tarixində ümumxalq səsverməsinin keçirilməsi nəzərdə tutulmuş və bu addım dövlət müstəqilliyinin legitim əsaslarını möhkəmləndirməyə xidmət etmişdir (Qasımlı və Muradova, 2018: 33). Bundan sonra 1991-ci il noyabrın 26-da Azərbaycan Respublikası Ali Soveti ölkənin suveren hüquqlarına əsaslanaraq Dağlıq Qarabağın muxtariyyət statusunun ləğvi barədə qərar qəbul etmişdir. Bu qərar Azərbaycanın öz milli dövlət quruluşunu müəyyən etmək hüququnun praktiki ifadəsi kimi qiymətləndirilə bilər (Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı, 1991).

Qəbul edilən qanunvericilik aktlarında vurğulanırdı ki, 1923-cü ildə yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayəti regionda etnik münasibətlərin gərginləşməsinə səbəb olmuş, eyni zamanda Azərbaycanın iqtisadi və inzibati sisteminə mənfi təsir göstərmişdir. Bu baxımdan həmin muxtariyyət modelinin Azərbaycan dövlətinin milli maraqlarına uyğun olmadığı qeyd edilirdi (Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı, 1991). Bundan başqa sənəddə Ermənistan SSR-də yaşayan azərbaycanlı

əhali üçün analoji milli-mədəni muxtariyyətin yaradılmaması və sonrakı dövrdə onların kütləvi şəkildə deportasiyaya məruz qalması faktı xüsusi vurğulanırdı. Bu hallar regionda etnik siyasətin qeyri-bərabər və selektiv şəkildə tətbiq olunduğunu göstərir. Ali Sovetin qəbul etdiyi qərarlarda həmçinin qeyd olunurdu ki, Dağlıq Qarabağ Muxtar Vilayətinin mövcudluğu Ermənistan tərəfindən həyata keçirilən separatçı fəaliyyətlər üçün siyasi və inzibati alətə çevrilmiş, bu isə Azərbaycanın suverenliyi və ərazi bütövlüyü üçün real təhlükə yaratmışdır. Bu səbəbdən muxtariyyət statusunun ləğvi dövlətin ərazi bütövlüyünü qorumağa yönəlmiş hüquqi tədbir kimi əsaslandırılmışdır (Azerbaycan Anayasası, 1991). Bu qərar nəticəsində 1923-cü il tarixli Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında dekret və 1981-ci il tarixli müvafiq qanun qüvvədən düşmüş hesab edilmişdir. Beləliklə, Azərbaycan dövləti öz suveren hüquqlarına əsaslanaraq Qarabağ bölgəsi üzərində tam hüquqi nəzarətini bərpa etməyə yönəlmiş mühüm addım atmışdır. Məsələyə nəzəri yanaşma baxımından, bildirilir ki qeyd edir ki, sovet dövründə yaradılmış muxtar qurumlar çox vaxt etnik balansı qorumaq məqsədi daşısa da, əslində gələcək münaqişələr üçün institusional zəmin formalaşdırmışdır (Cornell, 2001). Eyni zamanda, Thomas de Waal vurğulayır ki, Dağlıq Qarabağ məsələsində muxtariyyət modeli SSRİ-nin son dövrlərində siyasi alətə çevrilərək separatizm meyillərinin güclənməsinə səbəb olmuşdur (De Waal, 2003).

1991-ci il noyabrın 26-da qəbul edilmiş qanun yalnız Dağlıq Qarabağ Muxtar Vilayətinin statusunun ləğvi ilə məhdudlaşmamış, eyni zamanda regionda inzibati-ərazi bölgüsünün yenidən təşkilini də nəzərdə tutmuşdur. Bu çərçivədə Stepanakert, Mardakert və Martuni kimi toponimlər dəyişdirilərək onların tarixi adları – müvafiq olaraq Xankəndi, Ağdərə və Xocavənd bərpa edilmişdir. Eyni zamanda bəzi inzibati rayonlar ləğv olunmuş, yeni inzibati vahidlər yaradılmış və bölgənin Azərbaycan Respublikasının ümumi idarəetmə sisteminə inteqrasiyası gücləndirilmişdir (Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı, 1991). Bu addımlar Azərbaycanın dövlət suverenliyinin bütün ərazidə təmin edilməsi və milli ərazi bütövlüyünün möhkəmləndirilməsi istiqamətində həyata keçirilən sistemli siyasətin tərkib hissəsi idi. Lakin bu hüquqi və inzibati tədbirlərə baxmayaraq, Ermənistan tərəfindən həyata keçirilən genişmiqyaslı hərbi təcavüz Azərbaycanın ərazi bütövlüyünə ciddi zərbə vurmuşdur. 1990-cı illərin əvvəllərində baş verən hərbi əməliyyatlar nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin təxminən 20 faizi işğal olunmuş, nəticədə 700 mindən artıq insan məcburi köçkün vəziyyətinə düşmüşdür. Bu insanlar ölkənin müxtəlif yaşayış məntəqələrində müvəqqəti məskunlaşmağa məcbur olmuşdur. Bu vəziyyət regionda ciddi humanitar böhranın formalaşmasına səbəb olmuşdur (Türkiye Büyük Millet Meclisi [TBMM], 2021).

1993-cü ildə Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycan dövlətinin hərbi və siyasi strategiyasında mühüm dönüş baş vermişdir. Onun rəhbərliyi ilə ölkədə daxili siyasi sabitliyin təmin edilməsi, dövlət institutlarının möhkəmləndirilməsi və milli ordunun formalaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. Bu siyasətin nəticəsi olaraq Azərbaycan Ordusu bir sıra uğurlu hərbi əməliyyatlar həyata keçirmişdir. Xüsusilə 1994-cü ilin əvvəllərində həyata keçirilmiş Horadiz əməliyyatı nəticəsində Füzuli rayonunun bir sıra yaşayış məntəqələri işğaldan azad edilmişdir. Bu uğur Azərbaycan ordusunun döyüş qabiliyyətinin artdığını və hərbi potensialının gücləndiyini nümayiş etdirmişdir. Eyni zamanda bu əməliyyat Ermənistan tərəfini atəşkəs rejiminə razılaşmağa məcbur edən əsas amillərdən biri olmuşdur. Atəşkəs dövründə Azərbaycan rəhbərliyi yaranmış vəziyyətdən istifadə edərək dövlət quruculuğu və ordu islahatlarını sürətləndirmişdir. Qeyd olunur ki, bu dövrdə ölkədə sabitlik və təhlükəsizlik mühiti formalaşdırılmış, nizami milli ordunun yaradılması istiqamətində mühüm nailiyyətlər əldə edilmişdir (Qasımlı, 2021: 89).

Ümummilli lider Heydər Əliyevin hakimiyyəti dövründə Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində həyata keçirilən siyasət Azərbaycanın diplomatik mövqelərinin gücləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb etmişdir. O, beynəlxalq münasibətlər sistemində təşəbbüsü öz əlində saxlamağa çalışaraq aparıcı dünya dövlətləri, eləcə də Birləşmiş Millətlər Təşkilatı, ATƏT və onun Minsk qrupu kimi nüfuzlu beynəlxalq institutlarla intensiv danışıqlar aparmışdır. Bu fəaliyyət nəticəsində Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən və Ermənistanın işğalçılıq siyasətini pisləyən bir sıra beynəlxalq sənədlərin qəbuluna nail olunmuşdur. Heydər Əliyevin siyasi kursunun əsas istiqamətlərindən biri Azərbaycanın ərazi bütövlüyünün bərpası məsələsində qətiyyətli mövqe nü-

mayiş etdirmək idi. Onun "Azərbaycan torpağının bir qarışını da heç kimə verməyəcəyik" fikri dövlətin bu məsələdə prinsipial yanaşmasını ifadə edirdi (Qasımlı, 2021: 89). Bu mövqe yalnız daxili auditoriyaya deyil, eyni zamanda beynəlxalq ictimaiyyətə ünvanlanmış siyasi mesaj kimi də çıxış edirdi. Bununla yanaşı, Heydər Əliyev milli birliyin və diaspor fəaliyyətinin gücləndirilməsini də strateji prioritet kimi müəyyən etmişdir. 2001-ci ildə keçirilmiş Dünya Azərbaycanlılarının I Qurultayında səsləndirdiyi fikirlərdə qeyd olunduğu kimi, dünya üzrə yaşayan azərbaycanlıların həmrəyliyi dövlətin milli maraqlarının müdafiəsində mühüm rol oynayırdı. Bu yanaşma sonrakı dövrdə Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmləndirilməsinə və Qarabağ məsələsinin qlobal gündəmdə saxlanılmasına töhfə vermişdir.

Birinci Qarabağ müharibəsindən sonra, xüsusilə 1994-cü ildə imzalanmış Bişkek protokolundan etibarən Azərbaycan münaqişənin sülh yolu ilə həlli istiqamətində fəal diplomatik siyasət yürütmüşdür. Bu çərçivədə BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş qətnamələrin icrasına nail olmaq məqsədilə müxtəlif beynəlxalq platformalarda uzunmüddətli danışıqlar aparılmışdır. Lakin bu proseslər hər zaman stabil olmamış və müəyyən dövrlərdə ciddi çətinliklərlə üzləşmişdir. 2018-ci ildə Ermənistanda baş verən siyasi dəyişikliklərdən sonra yeni hakimiyyətin sərgilədiyi mövqe danışıqlar prosesinə mənfi təsir göstərmişdir. Ermənistan rəhbərliyinin səsləndirdiyi radikal və reallıqdan uzaq bəyanatlar, o cümlədən işğal olunmuş ərazilərə qeyri-qanuni səfərlər münaqişənin sülh yolu ilə həll perspektivlərini zəiflətmişdir. Thomas de Waal bu mərhələni münaqişənin diplomatik həll imkanlarının daraldığı və tərəflər arasında etimadın daha da zəiflədiyi dövr kimi xarakterizə edir (De Waal, 2003).

2019-cu ildə Ermənistanın müdafiə naziri tərəfindən irəli sürülən "yeni müharibə – yeni ərazilər uğrunda" konsepsiyası regionda gərginliyin artmasına səbəb olmuşdur. Bu yanaşma təkcə siyasi bəyanatla məhdudlaşmamış, eyni zamanda təmas xəttində və dövlət sərhədində hərbi təxribatların intensivləşməsi ilə müşayiət olunmuşdur. Bu prosesin kulminasiya nöqtələrindən biri 2020-ci ilin iyul ayında baş vermiş Tovuz hadisələri olmuşdur. Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində həyata keçirdiyi hücum cəhdləri regionda hərbi-siyasi gərginliyi daha da artırmışdır. TBMM hesabatında qeyd edildiyi kimi, bu cür hərbi təxribatlar regionda genişmiqyaslı münaqişənin yenidən alovlanması riskini artırmışdır (TBMM Report, 2021). Tovuz hadisələrinin mühüm nəticələrindən biri Azərbaycan cəmiyyətində milli həmrəyliyin daha da güclənməsi olmuşdur. Minlərlə insanın orduya dəstək məqsədilə keçirdiyi aksiyalar cəmiyyətin yüksək səviyyədə səfərbərliyini və dövlət rəhbərliyi ilə xalq arasında möhkəm birliyin formalaşdığını göstərirdi. Bu proses, əslində, Azərbaycanın qarşıdan gələn hərbi əməliyyatlara həm psixoloji, həm də siyasi baxımdan hazır olduğunu nümayiş etdirirdi.

Ermənistan tərəfinin davam edən hərbi təxribatlarına cavab olaraq Azərbaycan Respublikası 2020-ci il sentyabrın 27-dən etibarən genişmiqyaslı əks-hücum əməliyyatlarına başlamışdır. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən bu hərbi əməliyyatlar 44 gün davam etmiş və noyabrın 8-də Şuşa şəhərinin azad edilməsi ilə strateji dönüş nöqtəsinə çatmışdır. Prezidentin həmin gün xalqa müraciətində vurğulandığı kimi, əldə edilən qələbə yalnız hərbi üstünlük deyil, eyni zamanda Azərbaycanın tarixi ədaləti bərpa etməsinin göstəricisi kimi qiymətləndirilmişdir ("Veten müharibesi...", 2020). Şuşanın azad olunması müharibənin taleyini müəyyən edən əsas hadisələrdən biri olmuşdur. Bu hadisə həm hərbi-strateji, həm də siyasi baxımdan Azərbaycan tərəfinin üstünlüyünü təmin etmiş və Ermənistanı kapitulyasiya xarakterli razılaşmaya məcbur etmişdir. 44 günlük müharibə 2020-ci il noyabrın 10-da imzalanmış Üçtərəfli Bəyanatla yekunlaşmışdır. Həmin mərhələyə qədər Azərbaycan ordusu tərəfindən bir sıra yaşayış məntəqələri, o cümlədən şəhər və kəndlər işğaldan azad edilmişdir (Qasımlı və Muradova, 2018: 33).

Üçtərəfli Bəyanata əsasən, Ermənistan silahlı qüvvələrinin mərhələli şəkildə Azərbaycanın işğal olunmuş digər ərazilərindən çıxarılması nəzərdə tutulmuşdur. Bu çərçivədə Kəlbəcər, Ağdam və Laçın rayonlarının işğal altında olan hissələrinin Azərbaycan nəzarətinə qaytarılması prosesi həyata keçirilmişdir. Bununla belə, bəzi ərazilərdə Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirilməsi regionda yeni təhlükəsizlik reallığı formalaşdırmışdır. 44 günlük Vətən müharibəsi yalnız Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə nəticələnməmiş, eyni zamanda regionda siyasi və geosiyasi balansın dəyişməsinə səbəb olmuşdur. Xüsusilə diqqətəlayiq məqam ondan ibarət-

dir ki, Azərbaycan bu nəticəni böyük güclərin birbaşa hərbi dəstəyi olmadan, öz milli resursları və strateji planlaşdırması hesabına əldə etmişdir. TBMM hesabatında da qeyd edildiyi kimi, bu müharibə regionda yeni güc balansı yaratmış və Azərbaycanın hərbi-siyasi potensialını nümayiş etdirmişdir (TBMM Report, 2021). Buna əsasən, Thomas de Waal vurğulayır ki, Qarabağ münaqişəsinin son mərhələsi regionda qüvvələr nisbətinin dəyişməsi və uzun illər davam edən danışıqların nəticəsiz qalmasının məntiqi davamı olmuşdur (De Waal, 2003).

Bununla yanaşı, Üçtərəfli Bəyanatın bəzi müddəalarının tam icra olunmaması regionda gərginliyin davam etməsinə səbəb olmuşdur. Ermənistan tərəfinin silahlı birləşmələri müəyyən ərazilərdən tam çıxarılmamış, bu isə Azərbaycan mövqelərinin mütəmadi olaraq atəşə tutulması və ərazilərin minalanması kimi problemlərlə müşayiət olunmuşdur. Bu şəraitdə Azərbaycan dövləti öz suveren hüquqlarını təmin etmək məqsədilə 2023-cü ilin sentyabr ayında lokal xarakterli antiterror tədbirləri həyata keçirmişdir. Bu tədbirlərin əsas məqsədi qanunsuz silahlı birləşmələrin zərərsizləşdirilməsi, konstitusiya quruluşunun bərpası və dövlət suverenliyinin tam təmin edilməsi olmuşdur.[1]

2023-cü il sentyabrın 19-da Azərbaycan Respublikasının Qarabağ bölgəsində həyata keçirilən lokal xarakterli antiterror tədbirləri dövlət suverenliyinin tam təmin olunmasına yönəlmiş həlledici mərhələ kimi qiymətləndirilir. Qısa müddət təxminən 24 saat davam edən bu əməliyyat nəticəsində bölgədə fəaliyyət göstərən qeyri-qanuni erməni silahlı birləşmələri müqaviməti dayandıraraq təslim olmağa məcbur olmuşdur. Rusiya sülhməramlı kontingentinin vasitəçiliyi ilə aparılan danışıqlar nəticəsində 2023-cü il sentyabrın 20-də tam atəşkəs razılaşması əldə edilmişdir. Anlaşmaya əsasən Azərbaycan Respublikasının Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni silahlı dəstələr tərksilah olunmuş, döyüş mövqelərini tərk etmiş və bölgədə hərbi fəaliyyət tam şəkildə dayandırılmışdır. Bu proses nəticəsində Azərbaycan dövləti öz konstitusion quruluşunu və hüquqi nəzarətini bütün ərazi üzrə bərpa etmişdir. 2023-cü il sentyabrın 28-də separatçı rejimin özünü buraxması haqqında qərar qəbul edilmişdir. Bu qərar bölgədə uzun illər mövcud olmuş qeyri-qanuni siyasi qurumun faktiki olaraq fəaliyyətinə son qoymuş və Azərbaycanın suveren hüquqlarının tam bərpasını hüquqi müstəvidə təsdiqləmişdir (Qarabağda antiterror əməliyyatı, 2023). Sonrakı mərhələdə Azərbaycanın əldə etdiyi hərbi-siyasi nəticələr dövlət səviyyəsində rəmzi və siyasi tədbirlərlə təsbit edilmişdir. 2023-cü il noyabrın 8-də Xankəndi şəhərində keçirilmiş hərbi parad Azərbaycanın Qarabağ üzərində tam nəzarətinin və suverenliyinin bərpasının simvolik ifadəsi kimi çıxış etmişdir. Prezident İlham Əliyev həmin tədbirdə çıxış edərək qeyd etmişdir ki, Azərbaycanın ərazi bütövlüyü və dövlət suverenliyi tam şəkildə təmin olunmuşdur (Əzizov, 2021: 2).

Bu mərhələni xarakterizə edən əsas xüsusiyyətlərdən biri separatizm meyillərinin tam şəkildə aradan qaldırılması və dövlətin hüquqi sisteminin bütün əraziyə tətbiq olunması olmuşdur. Qeyri-qanuni silahlı birləşmələrin ləğvi, separatçı strukturların dağıdılması və onların rəhbərlərinin məsuliyyətə cəlb olunması dövlətin hüquqi suverenliyinin praktiki şəkildə təmin olunduğunu göstərir. TBMM hesabatında qeyd edildiyi kimi, bu proses yalnız lokal təhlükəsizlik tədbiri deyil, eyni zamanda regionda uzunmüddətli sabitliyin təmin olunmasına yönəlmiş strateji addım kimi qiymətləndirilir (TBMM Report, 2021). Cornell də vurğulayır ki, münaqişələrin yekun mərhələsində dövlətin ərazi üzərində effektiv nəzarətinin bərpası siyasi sabitliyin əsas şərtlərindən biridir (Cornell, 2001).

2020-ci il Vətən müharibəsi ilə başlanan və 2023-cü il antiterror tədbirləri ilə tamamlanan proses Azərbaycanın ərazi bütövlüyünün və dövlət suverenliyinin tam bərpası ilə nəticələnmişdir. Bu hadisələr Azərbaycanın müasir tarixində yeni mərhələnin başlanğıcı olmaqla yanaşı, həm də beynəlxalq hüququn əsas prinsiplərinin xüsusilə suverenlik və ərazi bütövlüyü prinsiplərinin praktik reallaşması kimi qiymətləndirilə bilər.

Bununla yanaşı bu proseslərin siyasi və hüquqi nəticələri dövlət səviyyəsində də öz əksini tapmışdır. Belə ki, Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ölkənin əldə etdiyi uğurların hüquqi və ideoloji baxımdan möhkəmləndirilməsinə xidmət edən mühüm addım kimi qiymətləndirilə bilər ("Qarabağda antiterror...", 2023).

1 10 Noyabr 2020-ci il tarixli Üçtərəfli Bəyanat, Maddə 4; Azərbaycan Respublikası Müdafiə Nazirliyinin "Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpası üçün lokal xarakterli antiterror tədbirlərinə başlanılması barədə bəyanatı", 19 sentyabr 2023

## 2. Qarabağ Münaqişəsinin Beynəlxalq Siyasi, Regional və Hüquqi Dimensiyaları

Qarabağ münaqişəsi həm aktiv hərbi əməliyyatlar dövründə, həm də ondan sonrakı geosiyasi nizamın formalaşması mərhələsində qlobal mətbuatın, beynəlxalq hüquq institutlarının və regional güclərin diqqət mərkəzində olmuşdur. Bu istiqamətdə formalaşan mühüm siyasi və hüquqi yanaşmalar aşağıdakı əsas istiqamətlər üzrə təsnif edilə bilər:

### 2.1. Xarici Mətbuatda Qarabağ Münaqişəsi ilə Bağlı Xəbərlər

İkinci Qarabağ müharibəsi və 2023-cü il antiterror tədbirləri dövründə xarici mətbuatda yayımlanan xəbərlərdə regional qüvvələr nisbətinin dəyişməsi və regionda yaranmış yeni təhlükəsizlik arxitekturası fərqli prizmalardan təhlil edilmişdir. Analitik materiallarda əsasən, uzun illər davam edən sülh danışıqlarının səmərəsizliyi və bunun məntiqi nəticəsi kimi hərbi müstəvidə status-kvonun dəyişməsi xüsusi qeyd olunmuşdur. Xarici media orqanlarında həmçinin münaqişənin regional təhlükəsizlik və humanitar vəziyyətə təsirləri, o cümlədən müharibənin gedişatında formalaşan hərbi-strateji üstünlüklər geniş şəkildə işıqlandırılmışdır.

### 2.2. Azərbaycan və Ermənistan Liderlərinin və Hökumət Rəsmilərinin Məsələ ilə Bağlı Açıqlamaları

Münaqişənin həlli və post-münaqişə dövründə tərəflərin rəsmi mövqeləri kəskin şəkildə fərqlənmişdir:

Azərbaycan tərəfi: Prezident İlham Əliyev öz çıxışlarında əldə edilmiş qələbənin hərbi uğur olmaqla yanaşı, tarixi ədalətin və beynəlxalq hüququn bərpası olduğunu mütəmadi olaraq bəyan etmişdir. Rəsmi Bakı münaqişənin başa çatdığını, ölkənin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində dövlət suverenliyinin tam təmin edildiyini və bundan sonrakı mərhələdə əsas diqqətin bölgədə konstitusiya quruluşunun və hüquqi nəzarətin qorunmasına yönəldiyini vurğulamışdır.

Ermənistan tərəfi: Xüsusilə 2018-ci ildə baş verən hakimiyyət dəyişikliyindən sonra Ermənistan rəhbərliyinin və hökumət rəsmilərinin (məsələn, müdafiə nazirliyinin «yeni müharibə – yeni ərazilər uğrunda» konsepsiyası) səsləndirdiyi radikal bəyanatlar və reallıqdan uzaq siyasi yanaşmalar sülh prosesini birbaşa dalana dirəmiş, təmas xəttində hərbi təxribatların intensivləşməsinə hüquqi-siyasi zəmin formalaşdırmışdır.

### 2.3. Rusiyanın Qarabağ Münaqişəsindən Sonra Yaratmaq İstədiyi Hüquqi Çərçivə

2020-ci il 10 noyabr tarixli Üçtərəfli Bəyanatın imzalanmasından sonra Rusiya regionda yeni bir hüquqi və təhlükəsizlik çərçivəsi formalaşdırmağa çalışmışdır. Bölgəyə müvəqqəti olaraq Rusiya sülhməramlı kontingentinin yerləşdirilməsi Moskvanın bu prosesdə həm vasitəçi, həm də regional təhlükəsizliyin əsas təminatçısı rolunda çıxış etmək niyyətini ortaya qoymuşdur (Qarabağda Antiterror Əməliyyatı, 2023). Lakin Ermənistanın qeyri-qanuni silahlı birləşmələrinin ərazilərdən tam çıxarılmaması və Üçtərəfli Bəyanatın bəzi fundamental bəndlərinin icra olunmaması bu hüquqi çərçivənin effektivliyini zəiflətmiş və nəticədə Azərbaycanın 2023-cü ildə öz suveren hüquqlarına əsaslanaraq daxili hüquqi nəzarətini tam bərpa etməsini zəruri etmişdir. İran və Türkiyə kimi regional aktyorların məsələyə yanaşmalarıRegional güclərin münaqişəyə münasibəti Cənubi Qafqazdakı yeni geosiyasi balansın formalaşmasında mühüm rol oynamışdır:

Türkiyə: Münaqişənin ilk dövrlərindən, xüsusilə İkinci Qarabağ müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyünü və beynəlxalq hüquqa əsaslanan suveren hüquqlarını birmənalı şəkildə dəstəkləmişdir. Türkiyənin bu prinsipial mövqeyi regional təhlükəsizliyin təmin olunmasında və sabitliyin yaradılmasında strateji amil kimi çıxış etmişdir. İran: Regionda sərhədlərin dəyişməzliyi prinsiplərini ön plana çəkərək, proseslərin öz sərhədlərinə yaxın ərazilərdə törədə biləcəyi geosiyasi təsirləri diqqətlə izləmiş və regionda kənar qüvvələrin təsirinin artmamasına yönəlmiş balanslaşdırıcı yanaşma nümayiş etdirməyə çalışmışdır.

Qarabağ zəfəri və post-münaqişə dövründə atılan addımlar təkcə Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə məhdudlaşmır, həm də Cənubi Qafqazın geosiyasi və hüquqi mənzərəsini köklü şəkildə dəyişdirir. Xarici mətbuatın reaksiyaları, regional güclərin prosesə yanaşmaları və xüsusilə Türkiyənin nümayiş

etdirdiyi strateji dəstək regionda yeni bir güc balansının formalaşmasında həlledici rol oynamışdır. Üçtərəfli bəyanatların tam icra olunmaması fonunda Azərbaycanın öz suveren hüquqlarına əsaslanaraq həyata keçirdiyi lokal tədbirlər, kənar aktorların yaratmaq istədiyi keçici hüquqi çərçivələri geridə qoyaraq bölgədə daimi sabitliyin və qəti dövlət nəzarətinin yeganə təminatına çevrilmişdir.

## Nəticə

Azərbaycan Respublikasının Qarabağ üzərində əldə etdiyi qələbə ölkənin müasir siyasi və hüquqi tarixində keyfiyyətcə yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilməlidir. Aparılmış təhlillər göstərir ki, bu zəfər təkcə hərbi uğur deyil, həm də uzunmüddətli dövlətçilik strategiyasının, ardıcıl siyasi fəaliyyətin və məqsədyönlü diplomatik kursun məntiqi nəticəsidir. Bu baxımdan Qarabağ zəfəri həm tarixi ədalətin bərpası, həm də dövlət suverenliyinin praktik təmin olunması kimi çıxış edir. 1991-ci ildə dövlət müstəqilliyinin bərpası və Dağlıq Qarabağ Muxtar Vilayətinin ləğvi Azərbaycanın öz ərazisi üzərində suveren hüquqlarını hüquqi müstəvidə təsbit edən əsas mərhələ olmuşdur. Bu hüquqi baza sonrakı dövrdə həyata keçirilən siyasi və hərbi strategiyanın formalaşmasına imkan yaratmışdır. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə müəyyən edilmiş dövlətçilik kursu, milli birliyin gücləndirilməsi, balanslaşdırılmış xarici siyasət və müasir ordu quruculuğu gələcək qələbənin əsaslarını təşkil etmişdir.

2020-ci ilin 44 günlük Vətən müharibəsi Azərbaycanın ərazi bütövlüyünün hərbi-siyasi yolla bərpası ilə nəticələnmiş və regionda mövcud olan uzunmüddətli status-kvonu köklü şəkildə dəyişdirmişdir. Bu qələbə yalnız hərbi üstünlük deyil, həm də dövlətin siyasi iradəsinin və strateji planlaşdırma qabiliyyətinin göstəricisi olmuşdur. Müharibədən sonrakı mərhələdə həyata keçirilən tədbirlər, xüsusilə 2023-cü ildə aparılmış lokal xarakterli antiterror əməliyyatları nəticəsində ölkənin suverenliyi bütün ərazi üzrə tam təmin olunmuş, qeyri-qanuni silahlı birləşmələr zərərsizləşdirilmiş və separatizm ocağı birdəfəlik aradan qaldırılmışdır. Azad edilmiş ərazilərdə dövlət atributlarının bərpası və inzibati idarəetmənin yenidən qurulması Azərbaycanın ərazi üzərində effektiv nəzarətinin təmin edildiyini göstərir. Bu proses həm siyasi sabitliyin möhkəmləndirilməsi, həm də milli dövlətçiliyin gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda əldə olunmuş nəticələrin hüquqi və siyasi müstəvidə möhkəmləndirilməsi istiqamətində atılan addımlar dövlətin uzunmüddətli inkişaf strategiyasının tərkib hissəsi kimi çıxış edir. Bu baxımdan ölkədə suverenliyin və konstitusion dəyərlərin ön plana çəkilməsi əldə edilmiş qələbənin davamlılığını təmin edən əsas amillərdən biridir.

## Ədəbiyyat Siyahısı


*Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətini ləğv etmək haqqında Azərbaycan Respublikası qanununun qüvvəyə minməsi qaydası barəsində Azərbaycan Respublikası Ali Sovetinin qərarı*. (1991). Azərbaycan Respublikası Ali Sovetinin məlumatı (31.12.1991/24 (853). Bakı.

*Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında konstitusiya aktı*. (1991). Azərbaycan Respublikası Milli Məclisinin Arxivi (ARMMA), f.2941, siy.1a, iş 264, v. 29-38/18.10.1991.

*Azərbaycan Respublikasının dövlət müstəqilliyi üzrə Azərbaycan Respublikasının referendumunun keçirilməsi haqqında Azərbaycan Respublikası Ali Sovetinin qərarı*. (1991). ARMMA, f.2941, siy.1a, iş 271, v. 106-108/15.11.1991.

Chiragov and Others v. Armenia. (2015). *European Court of Human Rights Judgment*. Strasbourg.

Cornell, S. E. (2001). *Small nations and great powers: A study of ethnopolitical conflict in the Caucasus*. London: Routledge.

De Waal, T. (2003). *Black garden: Armenia and Azerbaijan through peace and war*. New York: New York University Press.

Əzizov, E. (2021). *Vətən müharibəsi tarixi. Şəxsiyyət faktoru. Layihənin rəhbəri və ön sözün müəllifi*. Bakı: Şərq-Qərb.

Qarabağda antiterror əməliyyatı. (9 Mart 2026 tarihinde https://azerbaijan.az/related-information/310 adresinden erişildi).

Qasımlı, M. (2021). *Azərbaycan Respublikasının tarixi* (2 Cilddə 1991-2003). Bakı: BDU.

Qasımlı, M. ve Muradova, B. (2018). *Azərbaycan parlamentarizmi tarixi (II Cild)*. Bakı: Mütərcim.

Niftəliyev, İ. (2021). *Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və təcavüzünün yeni mərhələsi. Vətən müharibəsi tarixi: Şəxsiyyət faktoru.*

TBMM. (2021). *Karabağ Savaşı ve sonrası: Bölgesel güvenlik ve insani durum raporu*. Ankara.

Zeynaloğlu, C. (2021). *Vətən müharibəsi və vətəni yaşadanlar...* Bakı: Günəş.